Azərbaycan.- 2020.- 25 dekabr. S. 6.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident Əliyev!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram. Müdrik rəhbərliyinizlə gözəl ölkənizə və Sizə davamlı uğurlar arzulayıram.

2014-cü ilin aprel ayında Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirak etmək mənim üçün böyük şərəf idi. Həmin vaxt mən məhdud resurslu dünyamızda dinc iqtisadi inkişafı dəstəkləyən təşkilatın - Roma klubunun həmsədri idim. Siz böyük səxavət nümayiş etdirərək o vaxt yüksəksəviyyəli qonaqları görüşə dəvət etmişdiniz.

Onu da vurğulamaq istərdim ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi beynəlxalq əməkdaşlıq və tolerantlıq kimi dəyərlərin təbliği istiqamətində fəaliyyətini uğurla davam etdirir.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Sizə olan ən yüksək ehtiramımı bildirirəm.

*Səmimiyyətlə,*

***Ernst Ulrix fon VAYTSZEKER,***
***Roma klubunun fəxri prezidenti***